# QƏHRƏMAN MÜƏLLİMLƏRİMİZ




Ulu Öndər Heydər Əliyev 29 dekabr 2000-ci ildə çıxışı zamanı demişdir: "Mən çox nikbinəm və çox inanıram, əminəm ki, biz Azərbaycan üçün çox ağır olan bu problemi, bu məsələni həll edəcəyik. İşğal olunmuş torpaqlar azad olunacaqdır. İnsanlar öz doğma torpaqlarına qayıdacaqlar". İllər əvvəl nikbinliklə deyilmiş bu sözlər öz bəhrəsini 20 il sonra verdi. Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Ali Baş Komandan İlham Əliyevin əmri ilə qüdrətli Azərbaycan Ordusunun düşmənin əks hücumuna qarşı başladığı savaş bütün xalqı səfərbər etdi.

## Tarixə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsinin iştirakçısı oldum



**Bədəl HÜSEYNOV,**

*Bakı şəhəri 221 nömrəli tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini, Azərbaycan dili və ədəbiyyat müəllimi*

### Gələcək nəsillər tarixin bu şərəfli mərhələsini həmişə qürurla öyrənəcəklər

Vətənin belə önəmli günündə bir vətəndaş, uzun illər siniflərdə düşmənə qarşı nifrət hissi aşılayan bir müəllim kimi dayana bilməzdim. Xalqımızın silahsız, əliyalın, köməksiz insanlarına qarşı hər cür zorakı əməllər törətmiş azğın düşməni torpaqlarımızdan qovmağın zamanı çatmışdı. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciət edərək döyüşə getmək istədiyimi bildirdim. Müraciətimi nəzərə alıb məni arxa cəbhədə yerləşən toplanış məntəqəsinə göndərdilər. Orada iki gün təlim keçdikdən sonra Suqovuşan istiqamətində döyüş bölgəsinə yollandım. Beləcə, tarixə adı qızıl hərflərlə düşən 44 günlük Vətən müharibəsinin iştirakçısı oldum.

Bütün cəbhə boyu döyüşlər davam etsə də, hamının nəzəri Şuşada idi. Şuşa ən strateji əhəmiyyətli məntəqə hesab olunurdu. Azğın düşmən nə olursa olsun, Şuşanı əldən vermək istəmirdi. Ermənilər Birinci Qarabağ müharibəsində torpaqlarımızı işğal edərkən məhz əsas hədəf kimi Şuşanı götürmüşdülər. "Qarabağnamə"ləri oxuyanda görürük ki, Qarabağ xanlığı, onun mərkəzi Şuşa həmişə yadelli düşmənlərin diqqət mərkəzində olub. Hamı: dost da, düşmən də Şuşanın gözəlliyinə heyran olmuş, bu əzəmətli, gözəl şəhəri heyranlıqla seyr etmişlər. Şuşanın yerləşdiyi coğrafi mövqe də Qarabağda çox əlverişli strateji əhəmiyyət daşıyır. Şuşa şəhərinin əsası XVIII əsrin ortalarında qoyulub. Tarixi mənbələrə görə, Qarabağ xanı Pənahəli xan aramsız hücumlardan qorunmaq üçün 1750-ci illərdə Bayat və Şahbulaq adlı qalalar tikdirsə də, bu qalalardan heç biri xanlığı fasiləsiz müharibələrdən qoruya bilmir. Dəniz səviyyəsindən 1300-1600 metr hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunan dağ yaylası bu tələblərə tam cavab verdiyi üçün Pənahəli xan şəhəri elə burada salır. Şəhər əvvəlcə onun şərəfinə Pənahabad, sonradan Şuşa adlanıb.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilib. Şuşa "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırılıb.

Şuşa sənət ocağı, mədəniyyət beşiyidir. Üzeyir Hacıbəyov, Bülbül, Xan Şuşinski, Firidun bəy Köçərli, Əbdürrəhim bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Xurşidbanu Natəvan, Həmidə xanım Cavanşir, Əhməd bəy Ağaoğlu kimi məşhur ziyalılar, sənətçilər əslən Şuşadandırlar.

Şəhər işğal olunana kimi orada onlarla muzey, bir neçə orta və ali təhsil müəssisəsi, məktəblər və kitabxanalar olub. Şuşa şəhəri 1992-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur.

2020-ci ildə artıq 28 il idi ki, şuşalılar və bütün Azərbaycan Şuşasız idi. Düşmənlərimiz Şuşada at oynadır, müharibə vaxtı ələ keçirdikləri azərbaycanlı əsirləri orada saxlayır, onlara işgəncə verirdilər. Şuşadakı tarixi abidələrimiz dağıdılmış, şəhər əvvəlki görkəmini tamam itirmişdi.



Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Qarabağ müharibəsi ilə bağlı xalqa müraciətlərindən birində deyirdi: "Ermənistanın baş naziri gedib Şuşada, Cıdır düzündə rəqs edir, hesab edir ki, biz bununla barışacağıq?! Səhv edir! Heç vaxt biz bununla barışmayacağıq… Biz xeyirxah, sülhsevər xalqıq. Lakin biz öz ləyaqətimizi tapdalamağa, bizi təhqir etməyə imkan verməyəcəyik. Paşinyan Şuşada, Cıdır düzündə sərxoş halda rəqs edəndə özünə bu gün baş verənlər barəsində hökm imzalamışdı".

Beləliklə, gözlənilən o möhtəşəm gün gəlib çatdı. Azərbaycanın mərd, qorxmaz, igid oğulları düşməni məhv etməyə, onları doğma torpaqlarımızdan qovmağa başladılar. Bütün cəbhə boyu düşmən qorxub qaçmağa başladı. Döyüşlərin müxtəlif istiqamətlərdə davam etməyinə baxmayaraq, hamının gözü Şuşada idi. Hamı Şuşaya Qarabağın qapısı kimi baxırdı. Biz Şuşa istiqamətində döyüşən igidlərdən xəbər tutmaq üçün müxtəlif yollar, vasitələr axtarır, oradakı vəziyyəti öyrənməyə çalışırdıq. Hamı inanırdı ki, Şuşa düşmən tapdağından azad edilsə, demək, Qarabağın azad olunması öz həllini tapacaq. Sən demə, dünya hərb tarixində həmişə danışılacaq bir hadisə baş verirmiş Şuşada. İgidlərimiz taktika işlədərək sərt sıldırım qayalıqlardan Şuşaya daxil oldular. O gün Ali Baş Komandan hamının ürəyini riqqətə gətirən qələbə müjdəsini verdi: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik. Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Azərbaycanın 28 illik həsrətinə son qoyuldu və xalqımızın tarixi-mədəni irsində xüsusi yeri olan Şuşa geri qaytarıldı. Bu, Vətən müharibəsində qələbə deməkdir. Şuşanın azad edilməsi son əsrlərdə Azərbaycan tarixinin ən şanlı qələbəsidir.

Qələbə xəbərinin elan edilməsindən öncə dövlət başçısının Ümummilli Lider Heydər Əliyevin xatirəsi önündə nümayiş etdirdiyi ehtiram, Ulu Öndərin vəsiyyətini yerinə yetirdiyini deməsi Azərbaycanın həm də dövlətçilik prinsiplərinə sahib olduğunu göstərdi. Şuşa 2020-ci il 8 noyabrda Ali Baş Komandanımızın rəhbərliyi ilə geri qaytarıldı, Azərbaycanın 28 illik Şuşa yarası sağaldı! Dövlət Bayrağı Günü ərəfəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızın səbirsizliklə gözlədiyi müjdəni bu tarixi gündə verdi. O gün şəhidlərimizin müqəddəs ruhu şad oldu. Şuşa qələbəmizin zirvəsi oldu. Düşmən məğlub oldu, diz çökdü.

Həmin gün bu yazının müəllifi Suqovuşan istiqamətində yeni döyüş əmri gözləyirdi. Döyüş əmri yerinə zəfər xəbəri gəldi. Döyüşçülər sevincdən ağlayıb bir-birini qucaqlayırdılar. Hər sevincin içində bir Şuşa sevinci var idi.

Şuşa qaytarılmaqla təkcə torpaq qayıtmadı, torpaqla bərabər bizim Qarabağ boyda arzularımız, ümidlərimiz qayıtdı. Bizim yuxularımız, arzularımız çin oldu. Xarıbülbülün vətəni qayıtdı.

Müzəffər Ali Baş Komandan Şuşanı dirçəltmək əmrini verdi. Erməni vandalizminə məruz qalmış nə qədər tarixi abidələr, tikililər yenidən bərpa olundu. Şuşanın öz əvvəlki görkəminə qaytarılmasına başlandı. Bu addımla bir daha Ali Baş Komandan İlham Əliyev bütün dünyaya sübut etdi ki, torpağın əsl sahibi onu qurar, onu abadlaşdırar. Başqasının torpağı üzərində öz sarayını tikmək istəyənlər isə tarixin qaranlıq səhifələrində gömülərək qalacaqlar.

Doğma Qarabağda, əziz Şuşada hələ çox işlər görüləcək. Gələcək nəsillər tarixin bu şərəfli mərhələsini həmişə qürurla öyrənəcəklər.

## "Həm komandir, həm də müəllim kimi əsgərlərimizi ruhlandırırdım"

### Xocalı sakini, qazi riyaziyyat müəllimi Vüqar Kərimovun döyüş yolu

**Xocalıya həsr edilən riyaziyyat dərsi**

Zəng çalındı. Şagirdlərin arxasınca müəllimlər sinfə daxil oldu. Məktəbin 3 Vətən müharibəsi iştirakçısından biri, riyaziyyat və informatika müəllimi Vüqar Kərimov VI sinifdə dərsə girdi. Burada da "Öncə Vətən" deyib dərsin bir neçə dəqiqəsini Xocalı soyqırımına, Xocalı da daxil olmaqla Qarabağda bərqərar olan sülhə həsr etdi. Bu günə, bu zəfərə qəhrəman əsgər, vətənpərvər oğulların sayəsində çatdığımızı dedi: "Bilirsiniz ki, bu gün yeni tarixdə Xocalı soyqırımı, bir qətliam günüdür. Prezidentimiz bu gün Xocalıdadır və şəhidlərimizi məhz azad edilən Xocalı torpaqlarında anır. İllərdir məzarı belə olmayan insanları bu gün qürurla yad edirik".

Vətən mövzusu uzana da bilərdi, şagirdlərinin ən çox sevdiyi mövzulardandır, amma riyaziyyatı vətənin keşiyində duracaq hər oğul bilməlidir, axı. Odur ki, Vüqar müəllim "İndi isə riyaziyyat vaxtıdır!" - deyib günün mövzusuna keçdi. O, bu gün riyaziyyatda "Bərabərsizlik"dən danışacaq, tarixdə, gücdə, siyasətdə, dünyada bərabərsizliyin qurbanı olan Xocalı soyqırımı günündə!



**O, sevməyi öyrədir**

Dərs bitdi. Sinfin ən fəal şagirdlərindən olan İlkin Cəfərlini söhbətə tutduq, bu dərsdən nə anladığını soruşduq. Dediyinə görə, belə dərsləri çox olur. Onlar Vüqar müəllimin dərsində, sadəcə riyaziyyat öyrənmirlər: "Bilirsiniz, Vüqar müəllim Vətən müharibəsində olub. Müharibə iştirakçısı bir müəllimdən öyrəndiklərimizin çox dəyərli olduğunu düşünürəm. Müəllimimiz qəhrəmanımızdır. Ondan vətəni sevməyi də, riyaziyyatı da eyni həvəslə öyrənirik. Hər iki məfhumu bizə sevdirir. Hər dərsimizdə onun vətənimizi nə qədər çox sevdiyini görürük, ondan sevməyi də öyrənirik".

Şagirdlərinin qürur dolu baxışları uzaqlaşan kimi, "Vətən müharibəsi iştirakçısı" medallı Vüqar Kərimov döyüş xatirələrini bölüşdü.

**"Dördyol"dan başlayan döyüş yolu**

Məlumat üçün qeyd edək ki, Vüqar Kərimov əslən Laçın rayonu Fərraş kəndindəndir. Amma 2014-cü ildən Xocalı rayon sakinidir. Ehtiyatda olan baş leytenant Xocalı şəhər 5 nömrəli tam orta məktəbin



müəllimidir. Dediyinə görə, sentyabrın 27-də əkshücum əməliyyatları başlasa da çağrılmayıb. Nəhayət, gözlədiyi o zəng 1 həftə sonra gəlib: "Oktyabrın 1-də çağrıldım. Ayın 2-də Tərtərdə "Dördyol" adlanan yerdən döyüş yolum başladı, düz Suqovuşana qədər döyüşlərdə iştirak etdim. Oktyabrın 11-nə qədər müdafiə xəttində bölük komandirini əvəz edirdim. Oktyabrın 13-dən tağım komandiri vəzifəsinə təyin edildim".

Bu təyinatla o, hücum əməliyyatlarını idarə etməyə başlayıb. Taborunun həyata keçirdiyi 17 hücum əməliyyatından 12-13-də iştirak edən müəllim üçün döyüş həm müdafiə, həm hücumdan ibarətdir: "Tərtər çayından "Dördyol" deyilən yerə qədər ərazinin müdafiəsini təşkil, hücum əməliyyatları icra edirdik. Mən bütün əməliyyatlarda iştirak etdim".

**Müharibədən qalan acı xatirə aldığı yaralar yox, verdiyi itkilərdir**

Yara aldığı qanlı döyüşlərdən birini xatırlayır. Yarasından çox, itkisindən danışır: "Oktyabrın 15-də Suqovuşandan Ağdərə istiqamətində "530" yüksəkliyi uğrunda döyüşdə iştirak etdim. Oktyabrın 16-da günə şəhid verərək başlamışdıq. Əvvəl kombatımız şəhid oldu, sonra bölük komandirimiz Murad İbadovu itirdik. 15 şəhid verdiyimiz həmin döyüşdə mən də yaralandım. Aldığım qəlpə yarasına baxmayaraq, döyüş mövqeyini tərk etmədim, döyüşməyə davam etdim. Heç nəyə baxmayaraq, düşmən postuna daxil olduq".

Bu, onun həmin savaşda aldığı tək yarası da olmadı. Ayağından da yara alan qəhrəman müəllim o yaraları qürurla daşıyır. Deyir, döyüşdən qalan acı xatirələr yaralandığı yox, silahdaşlarını şəhid verdiyi anlardır. Amma qürur keçirdiyi anlar daha çoxdur: "Döyüş ruhu çox yüksək idi. Bunu görmək insanı qürurlandırırdı. Azərbaycan əsgəri ağlasığmaz hünərlər göstərirdi. Sanki heç kimin qorxu hissi yox idi".

**Zəfər günü "Tülkü dərəsində" idi**

Zabit zəfər əldə olunduğu günü, noyabrın 10-nu da xatırlayır: "Artıq Tərtərdə "Tülkü dərəsi" deyilən yerdə hücumdaydıq. Artilleriya hücumu başlamışdı. Artilleriya dayanan kimi piyada qoşunu yeriyəcəkdi. Ağır texnika susdu və piyada qoşununun hərəkəti dayandırıldı. Əvvəlcə təşvişə düşdük. Dərhal anlamadıq hücumun dayandırılma səbəbini. Sonradan öyrəndik ki, Ermənistan təslim olub və geri qalan ərazilərimizi qeyd-şərtsiz təhvil verəcək. Noyabrın 20-də Ağdam təhvil verildi və Ağdama daxil olan qoşun hissələrinin içərisində mən də vardım. Rayonun Şotlanlı kəndində mövqeləndik və mən dekabrın 31-dək həmin mövqedə xidmətimi davam etdirdim".

**Döyüşdə də vətənə sevgi aşıladı**

Döyüşdə, sadəcə komandir deyil, özünü həm də müəllim kimi hiss edib: "Komandir olaraq əsgəri düşünməliyik. Müəllim olaraq da şagirdlərimizin qayğısına qalmaq vəzifəmizdir. Həm komandir, həm müəllim kimi əsgərlərə qayğı göstərməyə çalışır, onların psixoloji vəziyyətini nəzarətdə saxlayır, daim söhbətlər aparır, mütəmadi vətənpərvərlik mövzusunda danışırdım. Əsgər döyüşə gedərkən psixoloji cəhətdən möhkəm olmalıdır, kimin üzərinə, niyə getdiyini bilməlidir. Baxmayaraq ki, Qarabağ savaşında əsgərlərimizin hamısı bunu bilirdi, hər birinin Qarabağ uğrunda itkisi olmuşdu, mən yenə də onlarla hər fürsətdə bu məsələləri əhatə edən söhbətlər aparırdım. Əsgərlərimizi ruhlandırmağa çalışırdım".

**Qürur yeri vətənpərvər yetişdirdiyi məzunlardır**

Xocalı 5 nömrəli tam orta məktəbin müəllimləri ilə yanaşı, məzunları da həm Vətən müharibəsində, həm də ötən il keçirilən antiterror əməliyyatları zamanı böyük qəhrəmanlıq göstərib, şəhid olublar: "Vətənpərvərlik evdən başlamalı, məktəbdə aşılanmalıdır. Şadam ki, bu prosesdə biz müəllimlər fəal iştirak etmişik, hətta bu ruhu döyüş meydanlarına qədər daşıya bilmişik. Bu ruhla illərdir işğal altında qalan torpaqlarımızı azad etdik. Məktəbimiz son antiterror əməliyyatlarında bir məzununu - Samir Məmmədovu şəhid verdi. İndi Samir və onun kimi minlərlə qəhrəman yetirməmiz qürurumuzdur!".

Vətən müharibəsinin qəhrəmanları olan müəllimlərimiz, siz də bizim qürurumuzsunuz!

**Ruhiyyə DAŞSALAHLI**